*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 118-124* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.118*

# Əli Razi Şamçızadə və "Molla Nəsrəddin" satirik jurnalı

**Gülbəniz Babayeva**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gulbeniz-babayeva@mail.ru

**Annotasiya.** Məqalədə "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndələrindən biri kimi Azərbaycan satirik mətbuatının və çoxəsrlik ədəbiyyatımızın inkişafına öz dəyərli töhfələrini verən Əli Razi Şamçızadənin ilk satirik jurnalımızdakı fəaliyyətindən söhbət açılır. Araşdırmada şairin Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əliqulu Qəmküsar, Qurbanəli Şərifzadə kimi mollanəsrəddinçi ədəbi hərəkatın üzvləri ilə görüşü və jurnalla sıx əməkdaşlığa başlaması məsələləri diqqət mərkəzində saxlanılır. 1906-cı ildən 1937-ci ilə kimi Əli Razinin "Molla Nəsrəddin" jurnalı ilə yanaşı, "Həyat", "İrşad", "Zənbur", "Tuti", "Açıq söz" və başqa mətbuat orqanlarında çoxlu sayda şeirləri, publisist məqalələri dərc edilmiş və kitabları çap olunmuşdur. Əli Razi istər satirik şeirlərində, istərsə də publisistik məqalələrində cəmiyyətdə baş verən özbaşınalığa, geriliyə, cəhalətə, ədalətsizliyə, haqsızlığa, xurafata, insanları kölə vəziyyətində saxlamağa çalışan hakim ideologiyaya, fırıldaqçı ruhanilərə qarşı çıxır, qadın azadlığı problemini aktual məsələ kimi ön plana çəkirdi. O, həllini gözləyən bütün bu məsələləri tənqid hədəfinə çevirdiyi üçün təqiblərdən yaxa qurtara bilməmiş, avam və cahil insanların hücumlarına məruz qalmışdı. Məqalədə bu məsələlərə geniş yer verilir, Əli Razinin zəngin və çoxşaxəli yaradıcılığı konkret nümunələr əsasında təhlilə cəlb edilir, şairin Azərbaycan ədəbiyyatındakı və milli mətbuatımızın inkişafındakı rolu işıqlandırılır.
**Açar sözlər:** Əli Razi Şamçızadə, "Molla Nəsrəddin" jurnalı, satirik mətbuat, "Dabanı çatdaq xala", satirik şeir, publisistika

**Məqalə tarixçəsi:** göndərilib – 18.09.2025; qəbul edilib – 03.10.2025

# Ali Razi Shamchizade and the satirical magazine "Molla Nasraddin"

**Gulbeniz Babayeva**
Doctor of Philological Sciences, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: gulbeniz-babayeva@mail.ru

**Abstract.** In the article is dealt with the activities in our first satirical magazine of Ali Razi Shamchizade who was one of the prominent representatives of the literary school "Molla Nasraddin" and made valuable contributions to the development of Azerbaijani satirical press and our centuries-old literature. The issues on poet's meeting with the members of Molla Nasraddin literary movement such as Jalil Mammadguluzade, Mirza Alakber Sabir, Aligulu Gamkusar, Gurbanali Sharifzade and his close collaboration with the magazine is the center of attraction. From 1906 to 1937 many poems, publicistic articles and books of Ali Razi have been published in "Molla Nasraddin" magazine, as well as in the press agencies such as "Heyat", "Irshad", "Zanbur", "Tuti", "Achig Soz" and others. Ali Razi both in his satirical poems and in his publicistic articles, opposes arbitrariness, backwardness, ignorance, injustice, unfairness, superstitions, the ruling ideology that tries to keep people under slavery, and the fraudulent clergy in society; and brought into prominence the problem of women's liberation as a current issue. He could not escape persecution and was subjected to

attacks from ignorant and lay people because he criticized all these unresolved issues. In the article these issues are studied extensively and Ali Razi’s rich and multifaced creativity is analyzed based on specific examples; the role of the poet in Azerbaijani literature and in the development of our national press is covered.
**Keywords:** Ali Razi Shamchizade, the magazine “Molla Nasraddin”, satirical press, “The Aunt with Cracked Heel”, satirical poem, publicism

**Article history:** received – 18.09.2025; accepted – 03.10.2025

## Giriş / *Introduction*

XX əsr Azərbaycan tənqidi realist ədəbiyyatının görkəmli nümayəndəsi, “Molla Nəsrəddin” ədəbi hərəkatının fəal üzvlərindən biri, mollanəsrəddinçi şair kimi tanınan Əli Razi Şamçızadənin satirik şeirin və publisistikanın inkişafında müstəsna xidmətləri olmuşdur. Şairin çoxəsrlik, zəngin folklorumuzdan, xalq ədəbiyyatı motivlərindən güc alan müxtəlif janrlı əsərləri mövzu, ideya rəngarəngliyi, orijinal üslubu, sadə və aydın dili ilə çoxsaylı oxucuların diqqətini cəlb etmişdir. Əli Razinin bir satirik şair, publisist kimi yetişməsində və formalaşmasında “Molla Nəsrəddin” ədəbi məktəbinin müstəsna rolu olmuşdur. Mollanəsrəddinçilərin böyük ideallar uğrunda mübarizəsinə qoşulan şair bütün yaradıcılığı boyu zülmə, istibdada, haqsızlığa, istismara qarşı mübarizə aparmış, satirik şeirlərində, publisistik məqalələrində azadlıq çarçısı kimi çıxış etmiş, elm, maarif və mədəniyyətin yüksəlişi naminə hər cür məhrumiyyətlərlə üzləşməli olmuşdur.

Əli Razi Şamçızadə satirik mətbuat orqanlarında “Dabanı çatdaq xala”, “Heyvərə”, “Fartdax xala”, “Bambılı”, “Xanbacı”, “Ə. Düdük” gizli imzaları ilə satirik şeirlərini dərc etdirirdi. Şairin müxtəlif illərdə “Dabanı çatdaq xala və heyvərə” (1912), “Dabanı çatdaq xala” (1936), “Seçilmiş əsərləri” (1936), “Nalələrim, fəğanlarım” (1992) (təkrar nəşr) kitabları çap edilmişdir. Əli Razi “Molla Nəsrəddin”lə yanaşı, XX əsrin əvvəllərində Azərbaycanda nəşr olunan “Həyat”, “İrşad”, “Tazə həyat”, “Bəhlul”, “Zənbur”, “Yeni irşad”, “Səda”, “Kəlniyət”, “Yeni həqiqət”, “İqbal”, “Açıq söz”, “Doğru söz”, “Tuti”, sovet hakimiyyəti illərində isə “Kommunist”, “Maarif və mədəniyyət”, “Mədəni hücum”, “Kəndçi qəzetəsi” və başqa mətbuat orqanları ilə də əməkdaşlıq etmişdir. O, həmçinin Firdovsinin min illik yubileyi ilə əlaqədar olaraq şairin “Şahnamə” poemasının bir bölməsini farscadan Azərbaycan dilinə tərcümə etmiş, “Qanlı toy”, “Mehparə” və “Rüşvət” adlı poemalar yazmışdır.

## Əsas hissə / *Main Part*

Böyük realist ədibimiz Cəlil Məmmədquluzadə Əli Razinin satirik yaradıcılığını yüksək qiymətləndirmiş, “Molla Nəsrəddin”in bir çox nömrələrindəki karikaturalar onun satiraları əsasında çəkilmişdir. Ə.Razi mollanəsrəddinçi olduğu üçün təqiblərə məruz qalmış, lakin jurnalla, onun əməkdaşları ilə əlaqələrini möhkəmlətmək məqsədilə Tiflisə getmişdi. O, 1936-cı ildə qələmə aldığı “Yadımda qalanlar” adlı xatirəsində yazırdı: “1906-cı ilin noyabrında Tiflisə getdim. Davidov küçəsini və 24 nömrəli evi axtarıb tapdım. (Bu ev C.Məmmədquluzadənin yaşadığı ev və “Molla Nəsrəddin”in redaksiyası idi). Qapı açıldı. Məmmədquluzadə gülümsəyərək məni redaksiya otağına apardı və oturmaqda olan üç nəfərlə tanış etdi. Bunlardan biri Sabir, ikincisi Əliqulu Qəmküsar və üçüncüsü Qurbanəli Şərifov idi... Altı aydan bəri həsrətini çəkib tanımaq istədiyim “Hophop”u gördükdə sevinib göyərçin kimi çırpınırdım” [12, s.184]. Əli Razi əsərlərində Şimali və Cənubi Azərbaycandakı həmvətənlərimizin çar və şah istibdadı altında əzilməsini, ağır və məşəqqətli həyat tərzi yaşamağa məhkum edilmiş qadınların acınacaqlı vəziyyətini əks etdirmişdir. Onun lirik şeirləri 1908, 1909-cu illərdə Gəncədə çap edilmiş “Nalələrim” və “Fəğanlarım” kitabında toplanmışdır.

Əli Razi yaradıcılığının ilkin mərhələsində klassik qəzəl janrında yazdığı məhəbbət şeirlərinə üstünlük versə də, sonralar satiraya daha geniş yer vermişdir. Şair 1904-1905-ci illərdə baş verən ictimai-siyasi hadisələrə fəal münasibət bildirmiş, çarizmin yürütdüyü siyasəti pisləmiş, yerli hakimlərin xalqa qarşı qeyri-insani münasibətlərini, zülmkarlığını, soyğunçuluq və talançılığını 1905-ci ildə qələmə aldığı "Kişi" və "Qırhaqır" şeirlərində tənqid hədəfinə çevirmişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələri ilə yaxından tanış olması, bu ədəbi hərəkata qoşulması şairin yaradıcılığında ciddi dönüş yaratmışdır. O, tənqidi realist ədəbiyyatı, satira və yumoru yüksək dəyərləndirərək özü də bu üslubda şeirlər yazır və "Molla Nəsrəddin" jurnalında çap etdirirdi. Eyni zamanda jurnalın səhifələrində Əli Razinin "Hədyanlarım", "İslam qiraətxanası", "Nalələrim", "Fəğanlarım", "Eşq və məhəbbət", "Yaman qardaş" kitabçalarının çapı haqqında elanlar da verilirdi (1908, №35, s.7; № 43, s.7). "Molla Nəsrəddin" jurnalının "Poçt qutusu"nda "Dostumuz Dabanı çatdaq xalaya" ünvanlanmış cavabda yumoristik şəkildə bildirilirdi ki, "yazılan şeirlər bir az qıcqırıblar" [10, s.8].

Jurnal bununla da Əli Razini "Molla Nəsrəddin"in üslubuna və tərzinə uyğun şəkildə yazmağa yönləndirirdi. Mollanəsrəddinçilərin ədəbi xəttini davam etdirdikdən sonra jurnal şairin maraqlı, duzlu-məzəli felyetonlarına və müxtəlif məzmunlu satirik şeirlərinə geniş yer verirdi. O, jurnalın 1908-ci ilin 4-cü sayında dərc etdirdiyi "Arvadlarımız" felyetonunda yazırdı: "A Molla Nəsrəddin qardaş! A kişi, iki ildi başlayıb hər həftə kişilərdən yazırsan, heç biz arvadlardan yazmırsan. Bundan sonra mən yazım, sən də məcmuəndə çap elə. Əgər bircə sözümü zibil səbətinə salsan, oğlum-qızım ölsün ki, daha bir şey yazmaram". Beləliklə, Əli Razi "Dabanı çatdaq xala" imzası ilə jurnalın daimi müxbiri və əsas yazarlarından birinə çevrilir. "Qadın köləliyindən, siğədən, çoxarvadlılıqdan, azyaşlı qızların qoca kişilərə zorla ərə verilməsindən, savadsızlıqdan, cadu-pitiyə inanan avamlardan, ər zülmü və qapazından, şəriət kəməndindən, günübacıların saçyoldusundan, uşaq tərbiyəsindən, günahsız qızların sel kimi axan göz yaşlarından, yazıq anaların min bir dərdindən mənsur və mənzum satiralar yazmaqda ardıcıl olaraq davam edir" [6, s.274]. Əli Razini bir ziyalı kimi qadın azadlığı problemi çox düşündürürdü. Buna görə də o, "Molla Nəsrəddin" jurnalının 1906-cı ilin 28-ci sayında bu məsələ ilə bağlı fikirlərini açıqlayaraq yazırdı: "Hörmətli Molla əmi. Yazıb sizdən təvəqqe edirəm, bizim bu kağızımıza yer verəsiniz. Keçmişdə jurnalınızda hamamdan, tiryəkdən, molladan, falaqqadan, cadu-pitikdən, üzərlikdən, ilandan, qurbağadan və s. belə şeylərdən yazırdınız. İndi, yəqin ki, sözünüz qurtarıb. Yapışmısınız biz arvadların yaxasından. Xülasə, səndən təvəqqe edirəm ki, müsəlman arvadlarının şəklini jurnalınızda çəkməyəsiniz. Çünki bizim rusca təlim alanlarımız o şəkilləri görüb bizdən vəhşilənirlər. Və çox vaxt olur ki, dönüb rus qızı alırlar. Bu da siz mollalara heç xeyir deyil, çünki kəbin pulu sizin cibinizdən keşişlərin cibinə girir" [2, s.3].

"Molla Nəsrəddin" jurnalında Əli Razi (Dabanı çatdaq xala) və Əli Nəzmi (Məşədi Sijimqulu) aşıq deyişmələri şəklində yeni bir ədəbi forma yaradaraq biri arvadların, digəri isə kişilərin dilindən şeirləşir və dialoq quraraq cəmiyyətdəki, məişətdəki problemləri satirik yöndən işıqlandırırdılar. Bu orijinal forma vasitəsilə hər iki şair həm qadınların, həm də kişilərin problemlərini dilə gətirir və jurnalın çoxsaylı oxucularına təqdim edirdilər. Cəmiyyəti bir güzgütək əks etdirən bu satirik şeirləşmədə obrazlar müxtəlif formalarda, o cümlədən danışan, ağlayan, gülən, hissə qapılan, düşüncələrə dalan şəkillərdə verilir, onların daxili aləmi danışıq aktı vasitəsilə aşkara çıxarılırdı. Maraqlı ədəbi formaya müraciət edən şairlər folklordan, xalq ruhundan süzülüb gələn sözlərdən yaradıcılıqla bəhrələnir, milli koloritə üstünlük verir və oxucuların marağına səbəb olan bir çox mətləblərə aydınlıq gətirirdilər. Bu satirik şeirlər jurnalda "Arvadlarımız", "Kişilərimiz", "Dabanı çatdaq xalaya", "Məşədi Sijimquluya", "Cavab" başlıqları altında dərc edilirdi:

*Mən gəlmişəm qənddana qənd qoymağa,*
*Gəlməmişəm ürəyimə dərd qoymağa.* [3, s.6]

*Biz almışıq arvad alaq çəkməyə,*
*Almamışıq zülfə daraq çəkməyə...* [8, s.6] və yaxud
*Molla! sənə eyləyirəm məsləhət,*
*Söylə görüm, evlənim, evlənməyim.* [9, s.3]
*Sijimqulu, eyləmisən məsləhət,*
*Utanma heç, gəl səni evləndirim* [4, s.7]

– kimi satirik dialoqlarda Azərbaycan qadınlarının həyatı, acınacaqlı yaşam tərzi, onlara qarşı həqiranə münasibət ön plana çəkilir, əsrin böyük faciəsi kimi fanatik düşüncə tərzi tənqid edilir, köhnəliklə yenilik qarşılaşdırılır və artıq vaxtı keçmiş adətlərə son qoymağın zamanının yetişdiyi satirik şəkildə geniş ictimaiyyətə çatdırılırdı.

Əli Razi yaşadığı cəmiyyətin ictimai-siyasi problemlərindən başlamış ailə-məişət məsələlərinədək dövrün bütün eyib və qüsurlarını cəsarətlə tənqid hədəfinə çevirirdi. Şairin inqilabdan əvvəl qələmə aldığı “Mollalar”, “Qazımız”, “Qazının duası”, “Ağamız”, “Sənin olsun” satiralarında mollalar, fırıldaqçı ruhanilər, “Günülər”, “Arvad al”, “Qayınanam”, “Gəlin”, “Doğma”, “Gəncədə”, “At axtarıram” şeirlərində isə məişətdə hökm sürən gerilik və cəhalət ifşa olunur. Şairin bu silsilədən olan şeirləri dil və üslub baxımından sadə, aydın və oxunaqlıdır. Əli Razinin xalq ədəbiyyatına, zəngin folklorumuza söykənən, dilimizin təmizliyini, saflığını özündə əks etdirən “Dürtmələ”, “Ötmərəm” kimi şeirləri müsəlman aləmini qəflətdən oyandırmağa səsləyən, satirik tərzi və orijinal üslubu ilə seçilən maraqlı nümunələrdir.

Şair “Molla Nəsrəddin” jurnalında dərc etdirdiyi satirik şeirləri ilə yanaşı, həm də publisistik yaradıcılığı ilə də diqqəti cəlb etmişdir. Professor İslam Ağayev Əli Razinin publisistik fəaliyyətini yüksək dəyərləndirərək yazır: “Əli Razinin ictimai-siyasi mövzuda yazdığı əsərləri içərisində satirik publisistikası birinci yerdə durur. Onun məhəbbət şeirindən sonra birdən-birə satirik publisistikaya müraciət etməsi təsadüfi deyildi. Bu hadisə zamanın tənqidə olan tələblərilə, hər şeydən əvvəl 1906-cı ildən nəşrə başlayan “Molla Nəsrəddin” satira jurnalının ədəbi-ictimai fikrə göstərdiyi təsirlə bağlı idi. Ə.Razinin satirik publisistika əsərləri janrca rəngarəngdir. Bunların içərisində felyetonlara, satirik xəbərlərə və s. rast gəlmək olar. Ə.Razinin satirik publisistikasının mövzu dairəsi rəngarəng olub müasir həyatın geniş hadisələrini əhatə edir” [1, s.468].

Əli Razinin satirik publisistikasında da qadın azadlığı probleminə geniş yer verilmişdir. Azərbaycan qadınlarının dilindən qələmə alınan bu yazıların əksəriyyəti “Molla əmi”yə müraciətlə başlayır. “Xanpəri bacının Cəhrəçi xalaya cavabı” şəklində qələmə alınan bu felyetonlarda Əli Razi təkcə qadın məsələsini gündəmə gətirməklə kifayətlənmir, eyni zamanda cəmiyyətdə mövcud olan digər problemlərə də toxunur. Məsələn, bu felyetonların birində 1905-ci il inqilabından sonra baş verən hadisənin təkcə Azərbaycanla məhdudlaşmayıb, geniş miqyas alması diqqətə çatdırılır: “Vallah, ay qız, sənin əqlin çaşıb. Yəni deyirsən ki, müsəlman qızları da urus və erməni qızları kimi məktəbə getsinlər? Necə qeyrətin qəbul eləyir, bu sözləri danışırsan? Onda bəs urus və erməni qızları ilə müsəlman qızlarının təfavütü nə olsun? Mən bilmirəm axırımız nə cür olacaq, çünki görürəm ki, bəzi laməzhəb müsəlmanlar istəyirlər qızlarını məktəbə göndərsinlər. Məhz bunların bəlasıdır ki, dünyavi-aləm bir-birinə dəyib, heç bir fikrinə gətiribsənmi ki, Rusiyyətdə niyə bu qədər nahaq qan tökülüb? Niyə Tehranda ixtişaş başlandı? Niyə Bakıda müsəlmanlar bir-birlərini boğurlar? Bilirsinizmi, bu işlərin səbəbi nədir?.. [7, s.6]

Əli Razinin ictimai-siyasi mövzuda qələmə aldığı xeyli sayda satiraları vardır. Şair bu silsilədən olan satiralarında çarizmi, qəddar senzuranı, yerli məmurları, yeniliyə qarşı çıxan köhnə fikirli mühafizəkarları, despotları tənqidə məruz qoyur. O, Molla Nəsrəddinə, Sabirə ithaf etdiyi şeirlərində doğru yazanların, həqiqəti söyləyənlərin ağır ittihamlarla üz-üzə qaldığını açıb göstərir. Əli Razinin mövcud quruluşdan, dövr və zəmanədən, sadə, zəhmətkeş insanların hüquqlarının pozulmasından şikayət motivli “Yazmıram”, “Kəndlilər”, “Molla Nəsrəddin”, “Hop-hopa” kimi şeirlərində satirik ittiham daha qabarıq şəkildə nəzərə çarpır.

1904-cü ildə general Sisianovun başçılığı ilə rus ordusunun Gəncəni işğal etməsinin 100 illiyinin keçirilməsi haqqında qərar qəbul edilərkən Əli Razi "100 il" adlı satirik bir şeir yazmış və bu hadisəni xalqımıza qarşı törədilmiş soyqırım adlandırmışdır. Şair satirada çarizmin müstəmləkəçilik siyasətini tənqid etdiyi üçün işgəncələrə məruz qalmışdır. Əli Razi 1936-cı ildə nəşr edilən "Dabanı çatdaq xala" adlı kitabında əksini tapan "100 il" şeirində imperiyanın qanlı əlləri ilə törədilən Gəncə faciəsini acı təəssüf hissilə xatırlayaraq yazırdı:

*Bəli, yüz il irəli "Sisyanov" almış buranı;*
*Vurdurub hər ürəyə süngü ilə yüz yaranı.*
*Kəsdirib arvad-uşaq, tapdaladıb mal-qaranı,*
*Oldu kef içkisi knyaz-boyara al qanımız.* [11, s.65]

Əli Razi 26 dekabr 1905-ci ildə yazdığı "Qırhaqır" adlı şeirində isə həmin ildə ermənilərin Gəncədə törətdiyi soyqırımı, qanlı hadisələri ürək ağrısı ilə qələmə almış, "Axıtdılar qırmızı sel Gəncədə, Türk-erməni bir-birini qırhaqır", – deyərək baş verən faciənin dəhşətli mənzərələrini gözlərimiz qarşısında canlandırmışdır [11, s.117]. Dövrün ictimai-siyasi hadisələrinə bir vətəndaş yanğısı ilə münasibət bildirən şair inqilabi proseslər fonunda Gəncədə baş verənləri günbəgün qələmə almış, tarixi faktlar əsasında dövrün real mənzərələri haqqında aydın təsəvvür yaratmışdır:

*Noyabrın on səkkizində gündüz,*
*Sərildi canlar küçələrə dümdüz,*
*Ac-yalavaclar öldürüldü yüz-yüz,*
*Yağış kibi güllə yağır şırhaşır.* [11, s.117]

Şair şəhərdə hökm sürən özbaşınalıq və hərcmərcliyi təsvir edərkən hadisələrə satirik yöndən yanaşmış və baş verən hadisələrin günahkarlarını ittiham etmişdir.

Əli Razi Şamçızadə 1909-cu ildə yazdığı "Molla Nəsrəddinə" adlı şeirinə görə Gəncədən sürgün edilir. Şeirdə Gəncədə xaotik bir vəziyyət yaradanlar, müftə yeyənlər, şəhəri xarabazara çevirənlər, el malına xor baxanlar, xalqın sərvətini talayanlar şairin tənqid hədəfinə tuş gəlir:

*Yazma, amandı, "Molla"!*
*Halım yamandı, "Molla"!*
*Gəncə talandı, "Molla"!*
*Dərdə qalandı, "Molla"!* [11, s.72]

Əli Razi şeirin sonunda "100 il" satirik şeirinə görə ona qurulan üç günlük məhkəmənin qanunsuz qərarından və özünə qarşı göstərilən şiddət və təzyiqlərdən bəhs edərək yazır:

*Çıxdı belə bir qərar:*
*"Gəncədən olsun kənar!"*
*Başdan edib sovdular,*
*Peysərimi ovdular,*
*Nifrət edib qovdular,*
*El yavalandı, "Molla"!* [11, s.74]

Şeirdə bəylərin özbaşınalığını, Gəncənin talanıb odlara qalandığını söyləyən şair özü də həqiqəti söylədiyi üçün sərt ittiham qarşısında qalır və məhkəməyə verilir.

Əli Razi 1910-cu ildə yazdığı "Gəncədə" adlı şeirində isə həmin dövrdə şəhərdə içki və qumara olan aludəçiliyi satirik bir şəkildə tənqid edir, eyni zamanda qadınların ən ağır cəzalara məhkum olunduğunu, onlara qarşı edilən qeyri-insani münasibətləri, dəhşətli səhnələri ürək ağrısı ilə əks etdirir:

*Bunlar olur köhnə dəbin qurbanı...*
*İplə boğurlar Saranı, Zəhranı;*
*Öldürülür Fatma, Nigar Gəncədə*
*Qan ləkə – evlər və divar Gəncədə.* [11, s.44]

Şair həmin dövrdə şəhərdə hökm sürən ağır ictimai və sosial vəziyyətin mövcudluğunu, qadınların faciəli taleyi haqqında məlumatı yana-yana xalqa, geniş oxucu auditoriyasına çatdırırdı.

Əli Razi İranda, Cənubi Azərbaycanda cərəyan edən inqilabi prosesləri, azadlıq hərəkatını boğmağa cəhd edən irticaçı qüvvələri, məzlumları acınacaqlı hala salan despotları, qanlı rejimin başında dayanan istibdadçıları tənqid hədəfinə çevirən "Neyləyir iranlılar", "Məşrutəçilər", "İranlılara" satiralarında xalqı ümumi düşmənə qarşı birgə mübarizəyə səsləyir. Əli Razi İranda baş verən məşrutə inqilabının əsl mahiyyətinin nədən ibarət olduğunu yaxşı dərk edir və burada baş verən ziddiyyətlərin səbəblərini görə bilirdi. Şair bu ziddiyyətlərin kökündə şah tərəfindən verilən məşrutənin (konstitusiyanın) əslində aldadıcı, xalqın gözündən pərdə asmaq olduğunu anladığı üçün İranın azadlıqsevər insanlarına müraciət edirdi. Ə.Razi sonu uğursuzluqla nəticələnən bu məşrutə inqilabının aqibətinə acısa da, bu yolda canlarını fəda edən qəhrəmanların şücaətini yüksək dəyərləndirir və onların əbədi yaşayacağına inamını ifadə edirdi. Hərəkatın başında dayanan, məşrutə inqilabının başçısı Səttarxana həsr etdiyi şeirlərinin birində onu ürəkdən alqışlayaraq deyirdi: Yaşa Səttarxan, hər zaman yaşa! Əli Razi İran məmləkətindəki çaxnaşmaların haradan qaynaqlandığını bilir və xalqın faciəsini görürdü. Məşrutə hərəkatının baş verməsi nəticəsində məhəmmədəli şahların, rəhimxanların ölkədən qaçması və onların başqa müstəbidlərlə əvəzlənməsi ilə heç nəyin dəyişməyəcəyini dərindən müşahidə edir və İran xalqına siyasi vəziyyətin ağır və dözülməz olduğunu çatdıraraq yazırdı:

*Məmdəliniz qaçdısa, yerində şahsevənlər,*
*Molla Qurbanəlilər, bir neçə yol kəsənlər*
*Çoxdur, a biçarələr, Mirzə Əbülhəsənlər,*
*Yaxşı işlər söyləmir, sizdən gəlib-gedənlər,*
*Ay evi viranlılar, ey yazıq iranlılar!* [5, s.4]

Əli Razi "Molla Nəsrəddin" jurnalında klassik ədəbiyyatımızda işlənən mürəbbe şeir şəklindən də istifadə etmişdir. Onun jurnalda dərc etdirdiyi "Məsləhət" (1908, №13), "Kişi" (1909, №12), "Yazmıram" (1909, №46) və s. satiraları mürəbbe şəkillidir. Əli Razinin ardıcıl olaraq jurnalda yer alan oynaq vəznli dördlükləri maraqla qarşılanmış, oxucuların rəğbətini qazanmışdır:

*İndiyədək mən buna allanmışam,*
*Arvad olanda necə ovlanmışam,*
*Gündə atam evinə yollanmışam.*
*İstəyir evlənsin o axmaq kişi.*

Əli Razinin "Kişi" şeiri hətta "Molla Nəsrəddin"in əsas yazarları olan Sabir və Əli Nəzminin də diqqətini cəlb etmiş, onlar bu mürəbbeyə cavab yazmışlar.

### Nəticə / *Conclusion*

Əli Razinin yaradıcılığında Şimali və Cənubi Azərbaycanın ictimai-siyasi və sosial həyatında baş verən inqilabi hadisələr genişliyi ilə əksini tapmış, rus imperiyasının və şah despotizminin istibdadı altında əzilən xalqların acınacaqlı taleyi onun yaradıcılığının əsas leytmotivinə çevrilmişdir. Şairin çoxsaylı əsərləri, humanist ideyaların carçısı olan şeirləri hər zaman ədalətsizliyə qarşı çıxmış, milli məfkurəyə söykənərək sadə və zəhmətkeş insanların mənafeyinə xidmət etmiş və xalqı azadlıq uğrunda mübarizəyə səsləmişdir. Əli Razinin müxtəlif mövzulu əsərləri içərisində Azərbaycan, eləcə də Şərq qadınlarının hüquq və azadlıqlarının qorunmasına həsr

etdiyi şeirləri və publisistik məqalələri "Molla Nəsrəddin" jurnalının oxucuları tərəfindən maraqla qarşılanmış və müəllifinə şöhrət qazandırmışdır. Haqqı, hüququ pozulan, zülm və işgəncələrə məruz qalan qadınların boğdurulan səslərinin geniş ictimaiyyətə çatdırılmasına, cəmiyyəti narahat edən məsələlərin işıqlandırılmasına bir ziyalı təəssübkeşliyi ilə xidmət göstərən şair mübariz ruhlu əsərlərinə, demokratik düşüncələrinə görə dövrün hakim dairələri, rəsmi inzibati orqanları, polis idarələri tərəfindən təqiblərə məruz qalsa da, sonadək öz əqidəsinə sadiq qalmışdır.

**Ədəbiyyat / *References***


1. Ağayev İ. Ədəbiyyat, mətbuat və publisistika problemləri. – Bakı: Elm, 2008.
2. Cəhrəçi xala. Bir arvadın cavabı. "Molla Nəsrəddin" jurnalı, 1906, № 28.
3. Dabanı çatdaq xala. Arvadlarımız. "Molla Nəsrəddin" jurnalı, 1908, № 5.
4. Dabanı çatdaq xala. Məşədi Sijimquluya cavab. "Molla Nəsrəddin" jurnalı, 1908, № 13.
5. Dabanı çatdaq xala. İranlılar. "Molla Nəsrəddin" jurnalı, 1909 , № 47.
6. Hüseynov F. Molla Nəsrəddin və mollanəsrəddinçilər. – Bakı: Yazıçı, 1986.
7. Xanpəri bacı. Cəhrəçi xalaya cavab. "Molla Nəsrəddin" jurnalı, 1906, № 29.
8. Məşədi Sijimqulu dayı. Kişilərimiz. (Dabanı çatdaq xalaya cavab). "Molla Nəsrəddin" jurnalı, 1908, № 8.
9. Məşədi Sijimqulu dayı. Məsləhət. "Molla Nəsrəddin" jurnalı, 1908, № 12.
10. "Molla Nəsrəddin" jurnalı, 1909, № 27.
11. Şamçızadə Ə. R. Dabanı çatdaq xala. – Bakı: Azərnəşr, 1936.
12. Zamanov A. Müasirləri Sabir haqqında. – Bakı: Uşaqgəncnəşr, 1962.


## Али Рази Шамчызаде и сатирический журнал «Молла Насреддин»


**Гюлбениз Бабаева**
Доктор филологических наук, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: gulbeniz-babayeva@mail.ru



**Резюме.** В статье говорится о деятельности в нашем первом сатирическом журнале видного представителя литературной школы «Молла Насреддин», внёсшего ценный вклад в развитие азербайджанской сатирической прессы и многовековой литературы. Центром внимания в исследовании является вопрос встречи поэта и начало тесного сотрудничества с членами литературного движения молланасреддинцев Джалилом Мамедгулузаде, Мирза Алекбер Сабиром, Алигулу Гямкюсаром, Гурбанали Шарифзаде. Помимо журнала «Молла Насреддин», с 1906 по 1937 гг. Али Рази Шамчызаде опубликовал книги, а также множество стихотворений, публицистических статей в органах печати Хаят», «Иршад», «Занбур», «Тути», «Ачыг сёз» и др. И в своих сатирических стихах, и в публицистических статьях Али Рази Шамчызаде выступает против самоуправства, отсталости, невежества, несправедливости, бесправия, насилия, удержания человека в рабском состоянии, существующих в обществе идеологии властей, против лукавых религиозных деятелей, выдвигает на первый план актуальную проблему эмансипации женщины. Оттого, что его мишенью являлись ожидающие своего решения все эти вопросы, он подвергался притеснению и атакам со стороны невежественных и недалёких людей. Этим вопросам в статье уделяется широкое место на основе конкретных примеров, освещается роль поэта в развитии азербайджанской литературы и национальной прессы.


**Ключевые слова:** Али Рази Шамчызаде, журнал «Молла Насреддин», сатирическая пресса, «Женщина с потреснутыми пятками», сатирическое стихотворение, публицистика